Bu vəsaitin elektron surəti, **@n4hkro** tərəfindən **“Elektron Vəsaitlər”** kanalı üçün hazırlanmışdır (https://t.me/eSources).

Kanalda təhsilə aid axtardığınız bir çox vəsaiti tapa və ya əlinizdəkiləri başqaları ilə bölüşə bilərsiniz.

Kanaldakı vəsaitlərin başqa kanallar (qruplar) tərəfindən paylaşılmasına etiraz edilmir.

**Telegram:**

Reklam, təklif və iradlarınız üçün: **@n4hkro**

Kanal: **@eSources**

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU

AİDA QULİYEVA
MƏMMƏDXAN SOLTANOV

# MƏKTƏBLİNİN ORFOQRAFİYA-ORFOEPİYA-QRAMMATİKA LÜĞƏTİ

**Orta ümumtəhsil məktəblərinin V - XI sinifləri üçün vəsait**

Təkmilləşdirilmiş ikinci nəşri

**BAKI - 2009**

2009
96

Ш163
Q-86

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU

AİDA QULİYEVA
MƏMMƏDXAN SOLTANOV

# MƏKTƏBLİNİN ORFOQRAFİYA-ORFOEPİYA-QRAMMATİKA LÜĞƏTİ

Orta ümumtəhsil məktəblərinin
V - XI sinifləri üçün
vəsait

84247

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-metodik şurası Azərbaycan dili və ədəbiyyat bölməsinin 19. 03. 2004-cü il tarixli 4 saylı iclas protokolu ilə təsdiq olunmuşdur.

ARXİV
85996
25142

Təkmilləşdirilmiş ikinci nəşri

BAKI - 2009

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Ш163.11-41

TƏRTİBÇİLƏR:
AİDA QULİYEVA - Bakı şəhəri, 18 nömrəli orta ümumtəhsil məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi, filologiya elmləri namizədi
MƏMMƏDXAN SOLTANOV - Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Azərbaycan dili və onun tədrisi metodikası» kafedrasının dosenti, filologiya elmləri namizədi

ELMİ REDAKTOR : Yəhya Kərimov - pedaqoji elmlər doktoru, professor

RƏYÇİLƏR :
1. ƏSGƏR QULİYEV - filologiya elmləri namizədi, dosent
2. BULUDXAN XƏLİLOV - filologiya elmləri doktoru, professor

Vəsait orta ümumtəhsil məktəblərinin V - XI sinif şagirdləri və Azərbaycan dili və ədəbiyyat müəllimləri üçün nəzərdə tutulmuşdur. Lüğətdə 9500-ə yaxın sözün yazılışı verilmiş, qarşısında ədəbi tələffüz forması, bundan sonra isə hansı nitq hissəsi olması göstərilmişdir. Sözlük orta məktəb üzrə proqram tələblərinə, şagirdlərinin yaş və bilik səviyyələrinə uyğun tərtib olunmuş, son dövrlərdə dilimizə keçmiş bir sıra alınma sözlər də oraya daxil edilmişdir. Mövcud lüğətdən təkcə orta məktəb şagirdləri və Azərbaycan dili və ədəbiyyat müəllimləri deyil, ali və orta ixtisas məktəblərinin tələbələri və başqa vətəndaşlar da istifadə edə bilərlər.

ARXİV

4603000000-77 Qrifli nəşr
N-098-2006

*"Elm öyrənməkdə əsas problem onun xüsusiyyətləri-nin, qayda və qanunlarının bəzən çətin həzm olunmasında, başa düşülməməsindədir. Ona görə də öyrənmək öyrənəndən daha çox öyrədənin ustalı-ğından asılıdır".*

*MÜƏLLİFLƏRDƏN*

## GİRİŞ

Orta ümumtəhsil məktəblərində tədris prosesində şagirdlərin qarşısına çıxan əsas çətinliklərdən biri sözlərin düzgün yazılışı və tələffüzü ilə bağlıdır. Bu çətinliklər bir tərəfdən onların müəyyən orfoqrafik və orfoepik qaydaları bilməmələrindən, digər tərəfdən dilimizə son dövrlərdə daxil olmuş bir sıra sözlərin yazılışı və tələffüzünün hələ sabitləşməməsindən, hələ heç bir qaydaya əsaslanmamasından irəli gəlir. Məsələn, elm və texnikanın inkişafı ilə əlaqədar dilimizə yeni daxil olmuş "kompüter" sözünün mətbuatda "kompyuter", "kompyüter" və "kompüter" şəklində bir neçə yazılış formasına təsadüf edilir, eləcə də "skaner" sözü bəzən "skayner" şəklində yazılır. Bundan başqa, "məşhur", "layihə", "stəkan" və s. kimi sözlərin yazılışı heç bir ümumi qaydaya əsaslanmadığından onların məhz bu şəkildə, yaxud "məhşur", "lahiyə", "istəkan" və s. formasında yazılması çətinlik doğurur. Mövcud vəsait məhz bu çətinlikləri aradan qaldırmaq, şagirdlərə düzgün yazılış və tələffüz qaydalarını mənimsətmək, sözlərin düzgün yazılışını, həmçinin tələffüzünü təqdim etmək üçün hazırlanmışdır.

Lüğətdə 9500-ə yaxın söz əhatə olunmuşdur. Sözlər seçilərkən, başlıca olaraq, orta məktəb şagirdlərinin yazılı və şifahi nitqində istifadə olunan, yazılışı və deyilişi müəyyən çətinliklərlə müşayiət olunan sözlər əsas götürülmüş, lakin eyni kökdən olan sözlərin hamısı deyil, nitqdə daha çox işlənənləri verilmişdir. Sözlüyə son dövrlərdə dilimizə daxil olmuş alınma sözlər, bir sıra xüsusi

isimlər və mürəkkəb adlar da daxil edilmiş, düzgün yazılışı və transkripsiyası verilmişdir.

Lüğətdə kompleks olaraq həm sözlərin orfoqrafiyası - düzgün yazılışı verilmiş, həm də bunların qarşısında orta mötərizədə həmin sözlərin orfoepiyası - düzgün tələffüz forması öz əksini tapmışdır. Şagirdləri çaşdırmamaq üçün sözlərin istər yazılışında, istərsə də tələffüzündə ikili yazılışa və tələffüzə yol verilməmiş, ən düzgün və sabitləşmiş yazılış forması, ən çox işlənən tələffüz şəkli əks etdirilmişdir. Qeyd etmək lazımdır ki, lüğətdə sözlərin yazılışı verilərkən keçmiş kirill qrafikasında işlədilmiş apostrof ( ' ) işarəsi çıxarılmış, lakin orfoepiyada onunla bağlı tələffüz qaydaları gözlənilmişdir. Əlavə olaraq mövcud lüğətdə şagirdlərin qrammatik bilik və bacarıqlara dərindən yiyələnməsi üçün hər bir sözün hansı nitq hissəsinə (bəzən bir neçə nitq hissəsinə) mənsub olması da ayrıca olaraq göstərilmiş, qeyd edilmişdir. Lüğətdə sözlərin düzgün tələffüz forması verilərkən aşağıdakı transkripsiya vasitələrdən istifadə edilmişdir:

1. Sözlərin orfoqrafiyası adi qaydada hərf kompleksləri ilə göstərilmiş, düzgün tələffüz forması isə orta mötərizədə transkripsiya işarələri ilə verilmişdir.

hirslənmək [hirsdəmməx']
hirsli-hirsli [hirsdi-hirsdi]
his [his]
hisli-paslı [hisldi-pasdı]
hiss [hiss] və s.

2. Tələffüzdə sait səslərin uzun tələffüzünü göstərmək üçün həmin saitlərdən sonra iki nöqtə ( : ) işarəsi qoyulmuşdur. Məsələn: musiqi [mu:siqi], nilufər [nilu:fər], müavin [ma:vin], lovğa [lo:ğa], çarhovuz [çarho:uz] və s.

3. Çoxhecalı sözlərin sonunda və bəzi sözlərin ortasında işlənən, yazıda k (ke) hərfi ilə işarə olunub [y] səsinin kar qarşılığını bildirən səs dilçilik ədəbiyyatlarında və orta məktəbin Azərbaycan dili dərsliyində olduğu kimi, [x'] şəklində işarə edilmişdir. Məsələn: məktub [məx'tub], gözəllik [gözəllix' ], çörəkdən [çörəx'dən] və s.

4. Son samiti x və ya qismən ğ ilə tələffüz edilib q ilə yazılan sözlərdə həmin q samiti tələffüzdə [x] ilə göstərilmişdir. Məsələn: qışlaq [qışlax] , qoruq [qorux], baxmaq [baxmax] və s.

5. Alınma sözlərdə işlənərək yazıda k (ke) hərfi ilə işarə olunub [q] səsinin kar qarşılığını bildirən [k'] (ka) səsi qarışıqlıq



yaranmamasını nəzərə alaraq transkripsiyada bütün hallarda [k'] şəklində ifadə olunmuşdur. Məsələn: kabinet [k'abinet] , kafedra [k'afedra] , makler [mak'ler] , vakuum [vak'u:m] , elektrik [elek'trik'] , park [park'] və s.

6. Müəyyən hallarda q (qe) hərfinin onun kar qarşılığı olan [k'] (ka) səsini bildirdiyini ifadə etmək üçün həmin samit transkripsiyada [k'] işarəsi ilə işarə olunmuşdur. Məsələn: nöqsan [nök'san], saqqal [sak'qal] , üfüq [üfük'] , şərq [şərk'] və s.

7. Bəzi sözlərin yazılış və tələffüzü verilərkən əlavə olaraq bu sözlərin qarşısında onların mənası da verilmiş, fərqləndirilmişdir. Məsələn:

abı [abı] (mavi, göyümtül rəng)
eston [eston] (xalq adı)
drap [drap] (parça)
ağadayı [ağadayı] (üzüm növü)
akasiya [ak'asiya] (ağac)
laübalı [la:üba:lı] (səhlənkar) və s.

8. Omonim sözlər lüğətdə verilərkən onların hər biri ayrıca olaraq qeyd edilmiş, ( * ) işarəsi ilə fərqləndirilmiş və bu omonim sözlərin hər birinin mənası ayrıca verilmişdir. Əlavə olaraq bu sözlərin üzərində dəqiq vurğusu qoyulmuş, sonluqda hansı nitq hissəsi olması göstərilmişdir. Məsələn:

şaxta* [şaxda] (bərk soyuq), *is.*
şaxta** [şaxta] (yeraltı mədən), *is.*
şərqi* [şərqi] (nəğmə), *is.*
şərqi** [şərqi] (gündoğar cəhət), *sif.*

Qeyd etmək lazımdır ki, omonimlik köməkçi nitq hissələrində də nəzərə alınmış, fərqləndirilmişdir. Məsələn:

sonra* [so:ra], *zərf*
sonra** [so:ra], *qoşma*
tək* [tək], *sif.* və *zərf*
tək** [tək], *qoşma*

Lüğət tərtib olunarkən mərhum professor, pedaqoji elmlər doktoru Əziz Əfəndizadənin "Orfoqrafiya-orfoepiya... lüğəti"ndən də istifadə olunmuş, ona istinad edilmişdir. Şözsüz ki, lüğət nöqsansız deyildir və bu nöqsanları bizə bildirən hər bir şəxsə əvvəlcədən öz minnətdarlığımızı bildiririk.

## Azərbaycan dili orfoqrafiyasının başlıca qaydaları

### Saitlərin yazılışına aid bəzi qaydalar

1. Birinci hecasındakı saiti həm e, həm də ə ilə deyilən sözlər iki cür yazılır:

a) e ilə yazılanlar, məsələn: pencək, erkən, gerçək, pendir, geniş və s.

b) a ilə yazılanlar, məsələn: pəncərə, çəkic, çəkmə, çəyirtkə, gətirmək və s.

2. Birinci hecasındakı saiti həm ü, həm də u ilə deyilən sözlər ü ilə yazılır, məsələn: sübut, qüdrət, sütun, qüvvət və s.

3. Birinci hecasındakı saiti həm ü, həm də i ilə deyilən sözlər ü ilə yazılır, məsələn: büllur, fürsət, xüsusi və s.

4. İkinci hecasındakı saiti həm ı, həm də u ilə deyilən sözlər iki cür yazılır:

a) ı ilə yazılanlar, məsələn: qayğı, qarpız, yarpız, pambıq və s.

b) u ilə yazılanlar, məsələn: mahud, arzu, armud, ma... , sabun, qohum və s.

5. İkinci hecasındakı saiti i, bəzən də ü ilə deyilən sözlər i ilə yazılır. Məsələn: münbit, mühit, ümid, münsif, müdir və s.

Təkcə üfüq və mühüm sözləri ü ilə yazılır.

6. Tərkibindəki o saiti [a] kimi tələffüz olunan rus və Qərbi Avropa dillərindən alınma sözlər Azərbaycan dilində də o ilə yazılır. Məsələn: ensiklopediya, velosiped, biologiya, laboratoriya, kombinat, professor, solist, polkovnik, obyekt, kolxoz, kollektiv, poçtalyon, problem, poema, motor və s.

7. Rus dilində ю ilə yazılan, əslində isə tərkibində ü saiti olan beynəlmiləl sözlər öz dilimizin tələffüzünə uyğun olaraq ü ilə yazılır. Məsələn: alüminium, uvertüra, paraşüt, karbürator, büro, ji... bülleten və s.

8. Sonu a ilə bitən alınma sözlər iki cür yazılır:

1) sonundakı a saiti atılarkən mənası dəyişməyən sözlər "a"-sız yazılır. Məsələn, rus dilində anketa, apteka, fabrika, konfeta kimi yazılan sözlər Azərbaycan dilində anket, aptek, fabrik, konfet şəklində yazılır.



2) sonundakı a saiti atılarkən mənası anlaşılmayan və ya başqa məna verən sözlər əslinə uyğun olaraq a ilə yazılır. Məsələn: botanika, poeziya, poetika, forma, respublika və s.

Birinci qisimdən olan sözlərdə a saitini atarkən onların mənası qətiyyən dəyişmir, həmin sözlər (anket, aptek, konfet və s.) dilimizin tələfüzünə tam şəkildə uyğunlaşır. İkinci qisimdən olan sözlərdə isə bu, mümkün deyildir. Çünki bu halda ya məna dolaşıqlığı əmələ gəlir, ya da həmin sözlərdən bəziləri öz fonetik şəklindən kənara çıxır, eybəcər şəklə düşür. Məsələn, botanika, qrammatika, poetika sözlərini "a"-sız işlətmiş olsaq, məna başqalaşması yaran... botanika bitkilər aləmi ilə məşğul olan elm sahəsi, botanik isə hə... sahədə çalışan mütəxəssisdir; qrammatika dilçiliyin bir şöbəsi, qrammatik isə qrammatikanın tədqiqi ilə məşğul olan alimdir; poetika bədii ədəbiyyat haqqında elm, yazıçının bədii üslub xüsusiyyətlərinin sistemi mənalarını bildirir, poetik isə nitq hissəsinə görə sifət olub, başqa mənada işlənir (poetik gözəllik, poetik vüs`ət). Poeziya, kamera, difteriya, norma, doktrina kimi sözləri "a"-sız işlətdikdə isə onların fonetik biçimi təhrif olunmuş şəklə düşür.

9. Əslində mənşəyinə görə birhecalı olub, tələffüzdə çox zaman sonundakı iki samit arasına i və ya ü saiti artırmaqla deyilən sözlər iki cür yazılır:

1) i k i s a i t l ə y a z ı l a n l a r: qəbir, qədir, eyib, ətir, zehin, izin, səbir, ömür, isim, nəsil, sətir, sinif, fəsil, fikir, cisi... şəkil və s.

2) b i r s a i t l ə y a z ı l a n l a r: qəbz, qəsr, əmr, əsl, zülm, nəbz, nəsr, nəfs, hüzn, həsr (etmək), hökm, üzr, üzv, həbs, kəsr, sədr və s.

İkinci qisimdən olan sözlərdən bəziləri iki saitlə yazıldıqda tamamilə başqa mənalı sözlər alınır: Məsələn: əsr - əsir, əmr - əmir, nəfs -nəfis, həsr - həsir, üzr - üzür, kəsr - kəsir və s.

### Samitlərin yazılışına aid bəzi qaydalar

1. İlk səsi həm b, həm də p ilə deyilən sözlər iki cür yazılır:

a) b ilə yazılanlar, məsələn: biçin, bıçaq, bişirmək və s.

b) p ilə yazılanlar, məsələn: pişik, pusqu, piti və s.

2. İlk səsi həm d, həm də t ilə deyilən sözlər əslinə müv... olaraq d ilə yazılır. Məsələn: dükan, dustaq, düşbərə, diksinmək, düşmən və s.

3. Birinci hecası n samiti ilə bitib, ikinci hecası b samiti ilə başlayan sözlərdə n samiti tələffüzündən asılı olmayaraq n ilə yazılır. Məsələn, tələffüzdə [şəmbə], [zəmbil], [təmbəl], [gombul], [ambar] kimi deyilən sözlər yazılışda şənbə, zənbil, tənbəl, gonbul, anbar kimi işlənir.

Qeyd: Kombinat, kombayn, kömbə, pambıq sözləri istisnalıq təşkil edir.

4. Sözün birinci hecasında kar samitdən əvvəl gələn v samiti f ilə deyilsə də, v ilə yazılır. Məsələn, [aftobus], [aftamat], [aftamabil], [aftoqraf] kimi deyilən sözlər avtobus, avtomat, avtomobil, aftoqraf şəklində yazılır.

5. Bir sıra sözlərdə sözün ikinci hecasının birinci samiti d ilə deyilir, lakin t ilə yazılır. Məsələn: dəftər, xəstə, astar, asta, usta, isti, bostan və s.

6. Müəyyən istisnalarla son samiti kar tələffüz olunan, lakin ondan sonra saitlə başlanan şəkilçi gələrkən cingiltiləşən çoxhecalı sözlərin son samiti cingiltili yazılır. Məsələn, [boşqap], [çəkiç], [pələnk], [armut], [papax] kimi tələffüz olunan sözlər boşqab, çəkic, pələng, armud, papaq şəklində yazılır.

7. Tərkibində ц olan alınma sözlər iki cür yazılır:

a) Ümumi isimlər s ilə yazılır. Məsələn: dosent, konsert, sirk, sex, sistern və s.

Qeyd: Vitse sözü istisnalıq təşkil edir.

b) Xüsusi isimlər ts ilə yazılır. Məsələn: Motsart, Kuznetsov, Muromets, Tsaritsın və s.

8. Birinci, ikinci və üçüncü hecasındakı samiti həm q, həm də ğ ilə deyilən sözlər iki cür yazılır:

a) q ilə yazılanlar, məsələn: aqrotexnika, aqronom, əqrə, təşviqat, pedaqoji və s.

b) ğ ilə yazılanlar, məsələn: işğal, məşğələ, təbliğat, mağaza, məşğul, vağzal və s.

### Qoşasaitli sözlərin yazılışına aid bəzi qaydalar

1. Kökündə müxtəlifcinsli qoşa sait işlənən alınma sözlər ədəbi dildəki tələffüzündən asılı olmayaraq, qoşa saitlə də yazılır. Məsələn: ailə, zəif, məişət, əcaib, idealizm, imperializm, stadion, pioner, okean və s.

Təkcə milyon və milyard sözləri istisna təşkil edir.



2. Kökündə eynicinsli qoşa sait işlənən alınma sözlər ədəbi dildəki tələffüzündən asılı olmayaraq, qoşa saitlə də yazılır. Məsələn: saat, camaat, maarif, təəccüb, təəssüf, mətbəə, təbii, bədii, zoonim, zoologiya, kooperativ, vakuum və s.

### Qoşasamitli sözlərin yazılışına aid bəzi qaydalar

1. Eynilə tələffüz olunan qoşa sonor samitli sözlərdə qoşa samitlər eynilə də yazılır. Məsələn, güllə, şillə, amma, vanna, innab, zərrə, horra sözləri qoşa samitlə tələffüz olunur və qoşa samitlə də yazılır.

2. Eynilə tələffüz olunan qoşa sürtünən samitli sözlərdə qoşa samitlər eynilə də yazılır. Məsələn, rəssam, qüssə, qüvvə, fəvvarə, şəffaf, meşşan sözləri qoşa samitlə tələffüz olunur və qoşa samitlə də yazılır.

3. Biri digərinin qarşılığı ilə tələffüz olunan partlayan qoşa kar və ya cingiltili samitli sözlər eyni qoşa samitlə yazılır. Məsələn, [qüpbə], [cüpbə], [dok'quz], [sak'qal], [hətda], [əlbətdə], [səkgiz], [mürəkgəb] kimi tələffüz olunan sözlər qübbə, cübbə, doqquz, saqqal, hətta, əlbəttə, səkkiz, mürəkkəb şəklində yazılır.

4. Təkhecalı sözlərin sonunda qoşa samitin hər ikisi yazılır. Məsələn: hiss, zənn, xətt, küll, rədd, sirr, fənn, zidd, haqq və s.

5. Qoşa samitli alınma sözlər ədəbi dildəki tələffüzündən asılı olmayaraq qoşa samitlə yazılır. Məsələn: assimilyasiya, dissertasiya, attestat, akkumulyator, barrikada, qrammatika, trolleybus, keyfiyyət, nəzəriyyə və s.

Qeyd: Alınma dillərdə qoşasamitli olan qruppa, antenna, tonna, apparat, parallel kimi sözlər dilimizdə bir samitlə yazılır, proqramma, diaqramma, teleqramma və s. kimi sözlərdə isə son ma hecası düşür: qrup, antena, ton, aparat, paralel, proqram, diaqram, teleqram və s.

### Şəkilçi, köməkçi söz və bəzi hissəciklərin yazılışına aid qaydalar

1. Aşağıdakı şəkilçilər ahəng qanununa tabe olmayaraq bir cür yazılır:

a) adlardan insan anlayışı bildirən isim düzəldən -gil şəkilçisi. Məsələn: qardaşımgil, bacımgil, əmimgil, Oqtaygil, Arifgil və s.

b) adlardan insan anlayışı bildirən isim düzəldən -daş şəkilçisi. Məsələn: vətəndaş, əməkdaş, yoldaş, məsləkdaş, sirdaş və s.

c) adlardan sifət və ya isim düzəldən -i və ya -vi şəkilçisi. Məsələn: inqilabi, həyati, tarixi, daxili, xarici, cənubi, Şirvani, dairəvi, ailəvi, kütləvi, Gəncəvi və s.

ç) adlardan məkan anlayışı bildirən isim əmələ gətirən -xana şəkilçisi. Məsələn: yeməkxana, çayxana, kitabxana və s.

d) adlardan sifət düzəldən -varı şəkilçisi. Məsələn: buynuzvarı, yüngülvarı, qalxanvarı, üzükvarı və s.

e) adlardan məkan anlayışı bildirən isim əmələ gətirən -stan şəkilçisi. Məsələn: gülüstan, Türkmənistan, Bolqarıstan, Gürcüstan, Qobustan, Hindistan və s.

Bu şəkilçi sonu saitlə bitən sözlərə artırıldıqda, sözlərin son saitindən asılı olaraq, onun əvvəlinə ı, i, u, ü səslilərindən biri əlavə olunur və beləliklə, həmin şəkilçilər -ıstan (-istan, -ustan, -üstan) şəklində işlədilir. Məsələn: Türkmənistan, Özbəkistan, Monqolustan, Dağıstan, Kürdüstan və s.

2. Aşağıdakı şəkilçilər ahəng qanununa tabe olaraq iki cür yazılır:

a) feldən isim və sifət düzəldən -ma (-mə) şəkilçisi. Məsələn: qırma, qovurma, çəkmə, bölmə, yığma (komanda) və s.

b) adlardan sifət düzəldən -dakı (-dəki) şəkilçisi. Məsələn: bağdakı (ağac), maşındakı (adam), küçədəki (hadisə) evdəki (qonaqlar) və s.

c) adlardan və feldən isim düzəldən -anaq (-ənək) şəkilçisi. Məsələn: tozanaq, döyənək, dəyənək və s.

ç) feldən sifət düzəldən -ağan (-əyən) şəkilçisi. Məsələn: qaçağan (at), küsəyən (uşaq) və s.

d) fel köklərindən sifət düzəldən:

1) -qan (-kən) şəkilçisi kar samitlə bitən sözlərdən sonra işlənir, məsələn: a) çalışqan (şagird), sürüşkən (yer) və s.

2) -ğan (-gən) şəkilçisi isə cingiltili samitlə bitən sözlərdən sonra işlənir, məsələn: qudurğan (adam), deyingən (qarı) və s.

3. Aşağıdakı şəkilçilər ahəng qanununa tabe olaraq dörd cür yazılır:

a) adlardan sifət və feldən isim düzəldən -ı (-i, -u, -ü) şəkilçisi. Məsələn: qızılı (rəng), gümüşü (portsiqar), çərkəzi (geyim), ölü, çəki, qorxu, ölçü və s.



b) adlardan sifət düzəldən -lı (-li, -lu, -lü) şəkilçisi. Məsələn: ağıllı (oğlan), məzəli (əhvalat), duzlu (yemək), ütülü (paltar) və s.

c) adlardan isim düzəldən -çı (-çi, -çu, -çü) şəkilçisi. Məsələn: arabaçı, dəmirçi, qoruqçu, gülçü və s.

ç) Fel köklərindən isim düzəldən:

1) -qı, -ki, -qu, -kü şəkilçiləri kar samitlə bitən sözlərdən sonra işlənir, məsələn: asqı, bitki, pusqu, sürtkü və s.

2) -ğı, -gi, -ğu, -gü şəkilçiləri isə cingiltili samitlə bitən sözlərdən sonra işlənir, məsələn: çalğı, silgi, bilgi, vurğu, vergi, bölgü və s.

d) Fel köklərindən sifət və isim düzəldən:

1) -qın, -kin, -qun, -kün şəkilçiləri kar samitlə bitən sözlərdən sonra işlənir, məsələn: qaçqın, satqın, tutqun, ötkün, bitkin, küskün və s.

2) -ğın, -gin, -ğun, -gün şəkilçiləri isə cingiltili samitlə bitən sözlərdən sonra işlənir, məsələn: yanğın, dalğın, qırğın, vurğun, əzgin, düzgün və s.

e) -kı (-ki, -ku, -kü) şəkilçisi ahəng qanununa tabe edilərək dörd cür yazılır. Məsələn: axşamkı, sabahkı, dünənki, onunku, bugünkü və s.

4. Sıra saylarını əmələ gətirən -ıncı (-inci, -uncu, -üncü) şəkiçlisi samitlə bitən miqdar saylarından sonra, -ncı (-nci) şəkilçisi isə saitlə bitən saylardan sonra işlənir. Məsələn: qırxıncı, beşinci, onuncu, üçüncü, altıncı, yeddinci və s.

Sıra sayları rəqəmlə yazıldıqda həmin şəkilçilər ixtisarla -cı, -ci, -cu, -cü şəklində işlənir və özlərindən əvvəl defis işarəsi qoyulur. Məsələn: 6-cı, 8-ci, 9-cu, 4-cü və s.

Rum rəqəmlərindən sonra bu şəkilçilər yazılmır. Məsələn: VI, VIII, IX və s.

5. Rəqəmlə yazılan müəyyən miqdar saylarına mənsubiyyət və hal şəkilçisi əlavə edildikdə:

1) hal şəkilçisi olmadıqda mənsubiyyət şəkilçisi yazılır. Məsələn: martın 8-i, martın 21-i, mayın 9-u və s.

2) hal şəkilçisi işlənərkən mənsubiyyət şəkilçisi yazılmır. Məsələn: martın 8-də, martın 21-də, mayın 9-da və s.

6. Sonu saitlə bitən irtica, ixtira, icma, maye, mənafe, mənbə, mənşə, misra, mövzu, mürəbbə, sənaye, şüa kimi isimlər hallandıqda və mənsubiyyətə görə dəyişdikdə yiyəlik, yönlük, təsirlik hal şəkilçilərinin, eləcə də mənsubiyyət şəkilçilərinin əvvəlinə n, y, s

bitişdirici samitlərindən biri artırılır. Məsələn: irtica - irticanın, irticaya, irticanı; mövzu - mövzunun, mövzuya, mövzunu; (onun) mövzuşu, sənaye - sənayenin, sənayeyə, sənayeni; (neft) sənayesi və s.

Qeyd. Ərəb-fars mənşəli tale, mövqe, mənafe, mənbə və mənşə sözlərinə, eləcə də əsl Azərbaycan sözləri olan su və nə sözlərinə mənsubiyyət şəkilçisi qoşulduqda köklə şəkilçi arasına bitişdirici s samiti əvəzinə y artırılır. Məsələn: (dövlətin) mövqeyi, (Adilənin) taleyi, (onun) mənafeyi, (çayın) mənbəyi, (dilin) mənşəyi, (bulağın) suyu və s.

7. İdi, imiş köməkçi sözləri, sonu samitlə bitən fel şəkillərindən başqa, bütün sözlərdən sonra ayrı yazılır. Məsələn: balaca idi, balaca imiş, quzu idi, quzu imiş, bu idi, bu imiş, cavan idi, cavan imiş, kələ idi, kələ imiş, apara idi, apara imiş, alsa idi, gəlsə imiş və s.

Qeyd: İdi, imiş köməkçi sözləri sonu samitlə bitən fel şəkillərindən sonra həm ayrı, həm də -dı, -di, -du, -dü və -mış, -miş, -muş, -müş şəklində bitişik yazıla bilər. Məsələn: alır idi, alırdı, alır imiş, alırmış, gedir idi, gedirdi, gedir imiş, gedirmiş, gələr idi, gələrdi, gələr imiş, gələrmiş və s.

8. Qoşmalar (-tək, -ca, -cə, -can, -cən, -dək və ilə qoşmalarından başqa) sözlərdən ayrı yazılır. Məsələn: sənin üçün, təyyarə tək, uşaq kimi, evə qədər, işdən ötrü və s.

9. -tək, -ca (-cə), -can (-cən), -dək qoşmaları sözə bitişik yazılır. Məsələn: səntək, uşaqca, dağacan, küçəyəcən, dağadək, küçəyədək və s.

10. İlə qoşması sonu samitlə bitən sözlərdən sonra həm ayrı, həm də -la (-lə) şəklində bitişik, saitlə bitən sözlərdən sonra isə, adətən, ayrı yazılır. Məsələn: qələm ilə - qələmlə, sənin ilə - səninlə, çəkic ilə - çəkiclə, tələbə ilə, atası ilə və s.

### Mürəkkəb və tərkibi sözlərin yazılışına aid qaydalar

1. Aşağıdakı mürəkkəb sözlər bitişik yazılır:

a) miqdar sayı ilə isim və ya sifətdən əmələ gələn sözlər. Məsələn: beşillik, beşguşə, beşmərtəbə, birmənalı, birhecalı, dördbucaqlı, ikihecalı, ikitərəfli, ongünlük, üçbucaq və s.

b) sadə (və ya düzəltmə) isimlə mənsubiyyət şəkilçili zərfdən əmələ gələn sözlər. Məsələn: bayramqabağı, qitələrarası,



qurultayqabağı, dənizkənarı, rayonlararası, səpinqabağı, həyətyanı, cərgələrarası, şəhərlərarası, şəhəryanı və s.

c) çıxışlıq halda olan isimlə sifətdən əmələ gələn sözlər. Məsələn: dərsdənkənar, anadangəlmə, ucdantutma, babadanqalma, başdansovma və s.

ç) sonu saitlə və ya cingiltili samitlə bitən fellərdən ha bitişdiricisi vasitəsi ilə əmələ gələn mürəkkəb isimlər. Məsələn: vurhavur, dehade, yazhayaz, yehaye, gəzhagəz, çalhaçal və s.

Təkrar edilən edilən fel kar samitlə bitərsə ha bitişdiricisi əvəzinə ahəngə görə a və ya ə yazılır. Məsələn: basabas, qaçaqaç, tutatut, içaiç, kəsəkəs və s.

2. Aşağıdakı mürəkkəb sözlər defislə yazılır:

a) eyni sözün təkrarı ilə əmələ gələn mürəkkəb sözlər. Məsələn: yavaş-yavaş, uca-uca, tez-tez, asta-asta, bir-bir və s.

Qeyd: Bu yolla düzələn mürəkkəb sözlərin bir qismində tərkib hissələri müxtəlif şəkilçilər qəbul etdikdə də belə sözlər defislə yazılır. Məsələn: üz-üzə, yan-yana, öz-özünə, birdən-birə, başdan-başa, ildən-ilə və s.

b) yaxın mənalı sözlərin birləşməsindən əmələ gələn mürəkkəb sözlər. Məsələn: dost-tanış, söz-söhbət, toz-torpaq, ara-sıra, həyət-baca, oğul-uşaq və s.

c) əks mənalı sözlərin birləşməsindən əmələ gələn mürəkkəb sözlər. Məsələn: dost-düşmən, az-çox, dərə-təpə, alış-veriş, səhər-axşam, var-yox, gec-tez və s.

ç) tərkibindəki sözlərdən biri və ya hər ikisi ayrılıqda məna verməyən sözlər. Məsələn: qarma-qarışıq, qonum-qonşu, pal-paltar, sir-sifət, əyri-üyrü, kağız-kuğuz, kasıb-kusub, çör-çöp, kələ-kötür, ayın-oyun, nəm-nüm və s.

d) tərkibində eks, vitse, qeyri, külli, kontr, ober, super, mini və əks sözləri olan isim, sifət və zərflər. Məsələn: eks-çempion, eks-spiker, vitse-prezident, vitse-admiral, qeyri-adi, qeyri-məqbul, qeyri-qanuni, qeyri-rəsmi, qeyri-iradi, külli-ixtiyar, külli-aləm, külli-kainat, kontr-admiral, ober-leytenant, ober-burqomistr, super-market, mini-market, mini-basketbol, mini-futbol, əks-zərbə, əks-kəşfiyyat, əks-həmlə və s.

e) təxmini miqdar bildirən mürəkkəb saylar. Məsələn: beş-on, üç-dörd, əlli-altmış, beş-altı və s.

ə) bir sayına -ə şəkilçisi və beş, on, yüz və s. kimi sayların qoşulması ilə düzələn mürəkkəb zərflər. Məsələn: birə-beş, birə-on, birə-yüz, birə-min və s.

3. Aşağıdakı tərkibi sözlər ayrı yazılır:

a) iki və daha artıq sözdən ibarət olan tərkibi saylar. Məsələn: əlli bir, altmış yeddi, yüz iyirmi beş, on doqquzuncu, otuz səkkizinci, onda üç, ikidə bir və s.

b) əvvəlinci sözü bu, o işarə əvəzliklərindən ibarət olan tərkibi sözlər. Məsələn: bu ay, bu il, bu gün, bu günkü, bu saat, o gün, o dəqiqə və s.

c) etmək, eləmək, olmaq köməkçi felləri ilə əmələ gələn tərkibi fellər. Məsələn: qənaət etmək, istirahət etmək, zəng eləmək, məşq eləmək, məşğul olmaq, dilxor olmaq və s.

ç) bir tərəfi -a (-ə), -ya (-yə) şəkilçili fel kökü və ya əsası, digər tərəfi bilmək sözündən ibarət olan fellər. Məsələn: yaza bilmək, danışa bilmək, görüşə bilmək, çatdıra bilmək və s.

d) frazeoloji birləşmələrdən ibarət fellər. Məsələn: and içmək, aşının suyunu vermək, qulaq asmaq, başa düşmək, ürəyi yanmaq, dabanına tüpürmək və s.

e) iki sözdən ibarət olan sual əvəzlikləri və qeyri-müəyyən əvəzliklər. Məsələn: nə vaxt? nə zaman? nə cür? heç kəs, heç kim, hər biri, hər kəs, hər kim və s.

ə) İki və daha artıq sözdən ibarət tərkibi bağlayıcılar ayrı yazılır. Məsələn: ya da, və ya, ya da ki, belə ki, gah da, gah da ki, madam ki, yoxsa ki, hərçənd ki və s.

## Azərbaycan dili orfoepiyasının bəzi qaydaları

1. Vaxtilə tərkibində e, ə və ö saitlərindən sonra apastrof işarəsi qoyulmuş ərəb dilindən alınma sözlərdə həmin saitlər bir qədər uzun tələffüz olunur. Məsələn: elan [e:lan], memar [me:mar], nemət [ne:mət], məmur [mə:mur], təsir [tə:sir], məna [mə:na], şölə [şö:lə], mötərizə [mö:tərizə] və s.

2. Bir sıra ərəb-fars mənşəli alınma sözlərdə a və u qalın saitlərindən sonra incə sait gəlirsə, həmin qalın saitlər bir qədər uzun tələffüz olunur. Məsələn: sadiq [sa:dik'], natiq [na:tik'], saqi [sa:qi], əlamət [əla:mət], fəlakət [fəla:kət], musiqi [mu:siqi], nilufər [nilu:fər], munis [mu:nis] və s.



3. Tərkibində eynicinsli qoşa sait olan alınma sözlərdə qoşa saitlər bir uzun sait kimi tələffüz olunur. Məsələn: saat [sa:t], camaat [cama:t], maarif [ma:rif], mətbəə [mətbə:], təəssüf [tə:ssüf], təəccüb [tə:ccüp], bədii [bədi:], təbii [təbi:] və s.

Qeyd: Zoologiya [zalogiya], kooperativ [kaperatif], kooperasiya [kaperasiya], koordinasiya [kardinasiya], koordinator [kardinator] kimi bir sıra sözlər istisnalıq təşkil edir.

4. Tərkibində müxtəlifcinsli yanaşı saitlər olan alınma sözlərin tələffüzündə aşağıdakı qaydalar əsas götürülür:

a) Bəzi birləşmələrdə yanaşı saitlər olduğu kimi tələffüz olunur. Məsələn: sual [sual], fauna [fauna], raund [raunt], sauna [sauna], kauçuk [k'auçuk'] və s.

b) Bəzi birləşmələrdə yanaşı saitlərdən birincisi tələffüzdən düşür, ikinci sait isə bir qədər uzun tələffüz olunur. Məsələn: səadət [sa:dət], müasir [ma:sir], müavin [ma:vin], müəllim [mə:llim], müamilə [ma:milə] və s.

c) Bəzi birləşmələrdə yanaşı saitlərin arasına bir y samiti əlavə olunur. Məsələn: ailə [ayilə], dairə [dayirə], biabır [biyabır], radio [radiyo], daima [dayima], bais [bayis] və s.

5. Rus və Qərbi Avropa dillərindən alınma bir sıra sözlərdə birinci və ikinci hecalardakı vurğusuz o saiti [a] kimi tələffüz olunur. Məsələn: obyekt [abyekt], fontan [fantan], pomidor [pamidor], vertolyot [vertalyot], laboratoriya [labaratoriya] və s.

6. Sonu a və ə saitləri ilə bitən çoxhecalı sözlərə əvvəlində y bitişdirici samiti olan şəkilçi artırdıqda həmin saitlər ahəngə uyğun olaraq tələffüzdə [ı], [i], [u], [ü] səslərindən birinə çevrilir. Məsələn: arabaya [arabıya], nənəyə [nəniyə], oynayır [oynuyur], söyləyir [söylüyür], yaşayar [yaşıyar], işləyər [işliyər], başlayacaq [başlıyacax], tərləyəcək [tərriyəcəx'], izləyəsidir [izdiyəsidir], oynayasıdır [oynuyasıdır], otlayan [otduyan], tərləyən [tərriyən], başlayım [başlıyım], bağışlayın [bağışlıyın] və s.

7. Söz başında və söz ortasında o və ö saitlərindən sonra v samiti gəlirsə, v samiti tələffüzdən düşür, o və ö saitləri isə bir qədər uzun tələffüz olunur. Məsələn: dovşan [do:şan], yovşan [yo:şan], dovğa [do:ğa], lovğa [lo:ğa], qırqovul [qırqo:ul], növbə [nö:bə], bənövşə [bənö:şə] və s.

8. Çoxhecalı və bəzi təkhecalı sözlərin sonunda işlənən cingiltili samitlər tələffüz zamanı karlaşır. Məsələn: palıd [palıt], çəkic

[çəkiç], bulud [bulut], yamac [yamaç], kitab [kitap], pələng [pələnk], kənd [kənt], qənd [qənt] və s.

9. Söz ortasında yanaşı gələn və ya qoşa işlənən kar samitlərdən ikincisi cingiltili tələffüz olunur. Məsələn: dəftər [dəfdər], ustad [usdad], kəşfiyyat [kəşviyat], mürəkkəb [mürəkgəb], səkkiz [səkgiz], əlbəttə [əlbətdə], mütəkkə [mütəkgə], mütəkkə [mütəkgə], şaftalı [şafdalı] və s.

10. Aşağıdakı hallarda q samiti öz kar qarşılığı olan [k'] kimi tələffüz olunur:

a) Yazıda qoşa q ilə işlənən sözlərdə əvvəlinci q samiti tələffüz zamanı [k'] kimi tələffüz olunur. Məsələn: saqqal [sak'qal], toqqa [tok'qa], şaqqa [şak'qa], saqqız [sak'qız], doqquz [dok'quz], tərəqqi [tərək'qi], çaqqal [çak'qal] və s.

b) Söz ortasında kar samitdən əvvəl gələn q samiti [k'] kimi tələffüz olunur. Məsələn: nöqsan [nök'san], nöqtə [nök'tə], məqsəd [mək'sət], iqtidar [ik'tidar], iqtisadi [ik'tisadi] və s.

c) Sonu q samiti ilə bitən bir qrup alınma sözlərdə q samiti [k'] kimi tələffüz olunur. Məsələn: üfüq [üfük'], şəfəq [şəfək'], şərq [şərk'], ittifaq [itdifak'], bioloq [biyolok'] və s.

11. Sonu q samiti ilə bitən çoxhecalı sözlərdə q samiti [x] kimi tələffüz olunur. Məsələn: otaq [otax], qatıq [qatıx], sınıq [sınıx], yanaq [yanax], çanaq [çanax], papaq [papax], yazmaq [yazmax], danışmaq [danışmax] və s.

Belə sözlərə samitlə başlayan şəkilçi artırdıqda və bu sözlərdən sonra samitlə başlayan söz gəldikdə yazıda q samiti qalır, tələffüzdə isə həmin samit [x] kimi işlənir. Məsələn: otaqdan [otaxdan], qatıqsatan [qatıxsatan], sınıq saz [sınıx saz], çanaqlı [çanaxlı], yazmaqdadır [yazmaxdadır], danışmaq lazımdır [danışmax lazımdır] və s.

Belə sözlərə saitlə başlayan şəkilçi artırdıqda q samiti həm yazıda, həm də tələffüzdə ğ-ya çevrilir. Məsələn: otağa [otağa], qatığın [qatığın], sınığı [sınığı], çanağın [çanağın], yazmağa [yazmağa], danışmağım [danışmağım] və s.

Bu sözlərdən sonra saitlə başlayan söz gəldikdə isə yazıda q samiti qalır, tələffüzdə isə həmin samit ğ kimi işlənir. Məsələn: otaq idi [otağ idi], qatıq aldım [qatığ aldım], sınıq alət [sınığ a:lət], çanaq



altında [çanağ altında], yazmaq istəyirdim [yazmağ istiyirdim], danışmaq istədi [danışmağ istədi] və s.

12. Aşağıdakı hallarda k samiti y samitinin kar qarşılığı olan [x'] kimi tələffüz olunur:

a) Sonu k samiti ilə bitən çoxhecalı sözlərdə k samiti [x'] kimi tələffüz olunur. Məsələn: kötük [kötüx'], çörək [çörəx'], çiçək [çiçəx'], kəpənək [kəpənəx'], ördək [ördəx'], işləmək [işləməx'], getmək [getməx'], kömək [köməx'] və s.

Belə sözlərə samitlə başlayan şəkilçi artırdıqda və ya bu sözlərdən sonra samitlə başlayan söz gəldikdə yazıda k samiti qalır, tələffüzdə isə həmin samit [x'] kimi işlənir. Məsələn: kötükdən [kötüx'dən], çiçəkli [çiçəx'li], kəpənək gördüm [kəpənəx' gördüm], ördək yumurtası [ördəx' yumurtası], işləməkdədir [işləməx'dədir], getməkdədir [getməx'dədir], köməkçi [köməx'çi] və s.

Belə sözlərə saitlə başlayan şəkilçi artırdıqda k samiti həm yazıda, həm də tələffüzdə y-ya çevrilir. Məsələn: kötüyün [kötüyün], çiçəyi [çiçəyi], kəpənəyə [kəpənəyə], ördəyin [ördəyin], işləməyim [işləməyim], getməyimiz [getməyimiz], köməyiniz [köməyiniz] və s.

Bu sözlərdən sonra saitlə başlayan söz gəldikdə isə yazıda k samiti qalır, tələffüzdə isə həmin samit y kimi işlənir. Məsələn: kötük üstündə [kötüy üstündə], çiçək ətri [çiçəy ətri], kəpənək uçur [kəpənəy uçur], ördək əti [ördəy əti], işləmək arzusu [işləməy arzusu], getmək istəmirəm [getməy istəmirəm], kömək edirəm [köməy edirəm] və s.

b) Söz ortasında samitlərdən əvvəl gələn k samiti də [x'] kimi tələffüz olunur. Məsələn: məktəb [məx'təb], məktub [məx'tub], təklif [təx'lif], səksən [səx'sən] və s.

13. Söz ortasında b və m samitlərindən əvvəl gələn n samiti [m] kimi tələffüz edilir. Məsələn: günbəz [gümbəz], sünbül [sümbül], gonbul [gombul], şənbə [şəmbə], zənbil [zəmbil], zanbaq [zambax], qanmaz [qammaz], görünmədən [görümmədən] və s.

14. Sonu st, ft, şt və s. samit birləşmələri ilə bitən alınma sözlərdən sonra samitlə başlayan şəkilçi və ya söz gəldikdə, t samiti tələffüzdən düşür. Məsələn: bədbəxtlik [bədbəxlix'], dostlar [doslar], sərrast [sərras], dost tapmaq [dos tapmax], sərbəstlik [sərbəslix'], sərbəst yazı [sərbəs yazı], neftçi [nefçi], neft quyusu [nef quyusu], güzəştsiz [güzəşsiz] və s.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

15. İkinci şəxs cəminin şəxs (xəbər) şəkilçiləri olan -sınız (-siniz, -sunuz, -sünüz) ədəbi tələffüzdə -sız (-siz, -suz, -süz) şəklində işlənir. Məsələn: yazırsınız [yazırsız], baxırsınız [baxırsız], gələrsiniz [gələrsiz], qaçarsınız [qaçarsız], oxuyursunuz [oxuyursuz], görüşürsünüz [görüşürsüz] və s.

16. Sonu n və m samitləri ilə bitən sözlərdən sonra işlənən çıxışlıq hal şəkilçisi -dan (-dən) ədəbi tələffüzdə -nan (-nən) şəklində işlənir. Məsələn: məndən [mənnən], səndən [sənnən], vətəndən [vətənnən], oğlandan [oğlannan], üzümdən [üzümnən], sözümdən [sözümnən] və s.

17. Cəm şəkilçisi -lar (-lər) qoşulduğu sözün son samitindən asılı olaraq lar (-lər), -rar (-rər), -nar (-nər), -dar (-dər) variantlarında tələffüz olunur. Məsələn: güllər [güllər], şəkillər [şəkillər], əsərlər [əsərrər], şəhərlər [şəhərrər], oğlanlar [oğlannar], itənlər [itənnər], qızlar [qızdar], şahidlər [şahitdər] və s.

18. İlə qoşmasının şəkilçiləşmiş -la (-lə) forması və zərf düzəldən -la (-lə) şəkilçisi sonu samitlə bitən sözlərə qoşulduqda -nan (-nən) şəklində tələffüz olunur. Məsələn: qələmlə [qələmnən], qatarla [qatarnan], vintaçanla [vintaçannan], güclə [gücnən], hörmətlə [hörmətnən], zarafatla [zarafatnan] və s.

İlə qoşması sonu saitlə bitən sözlərə qoşulduqda -nan (-nən) tələffüz şəklinin qarşısına bir y səsi də əlavə olunur. Məsələn: qızı ilə [qızıynan], körpəsi ilə [körpəsiynən], başı ilə [başıynan], güzgü ilə [güzgüynən] və s.

19. Üçün qoşması sonu samitlə bitən sözlərə qoşulduqda -çın (-çin, -çun, -çün) şəklində tələffüz olunur. Məsələn: qardaşım üçün [qardaşımçın], məktəbimiz üçün [məx'təbimizçin], onun üçün [onunçun], özüm üçün [özümçün] və s.

Üçün qoşması sonu saitlə bitən sözlərə qoşulduqda -çın (-çin, -çun, -çün) tələffüz şəklinin əvvəlinə bir y səsi də əlavə olunur. Məsələn: qardaşı üçün [qardaşıyçın], tələbəsi üçün [tələbəsiyçin], özü üçün [özüyçün] və s.

20. Nəqli keçmiş zaman şəkilçisindən sonra ikinci şəxs şəkilçiləri və ya xəbər şəkilçiləri gəldikdə -mış (-miş, -muş, -müş) zaman şəkilçisindəki ş samiti tələffüzdən düşür. Məsələn: gəlmişsən [gəlmisən], gəlmişsiniz [gəlmisiz], yazmışsan [yazmısan], yazmışsınız [yazmısız], görmüşsən [görmüsən], görmüşsünüz [görmüsüz] və s.



# ORFOQRAFİYA-ORFOEPİYA-QRAMMATİKA LÜĞƏTİ

## AZƏRBAYCAN ƏLİFBASI

| | | |
|---|---|---|
| A a (a) | X x (xe) | P p (pe) |
| B b (be) | İ i (i) | R r (er) |
| C c (ce) | I ı (ı) | S s (se) |
| Ç ç (çe) | J j (je) | Ş ş (şe) |
| D d (de) | K k (ke) | T t (te) |
| E e (e) | Q q (qe) | U u (u) |
| Ə ə (ə) | L l (el) | Ü ü (ü) |
| F f (ef) | M m (em) | V v (ve) |
| G g (ge) | N n (en) | Y y (ye) |
| Ğ ğ (ğe) | O o (o) | Z z (ze) |
| H h (he) | Ö ö (ö) | |

A

abad [abat] (təmiz, səliqəli), *sif.*
abadlaşdırmaq [abatdaşdırmax], *fel*
abadlaşmaq [abatdaşmax], *fel*
abadlıq [abatdıx], *is.*
abajur [abajur], *is.*
Abakan [Abak'an]
abasbəyi [abasbəyi] (armud), *sif.*
Abbas Səhhət [Abbas Səhət]
Abdulla Şaiq [Abdulla Şa:yik']
abgərdən [abgərdən], *is.*
abgüşt [abguşt] (bozbaş, piti), *is.*
ab-hava [ab-hava], *is.*
Abxaziya [Abxaziya]
abı [abı] (mavi, göyümtül rəng), *sif.*
abır [abır], *is.*
abır-həya [abır-həya], *is.*
abırlı [abırrı], *sif.*
abid [a:bid] (ibadət edən), *is.*
abidə [a:bidə], *is.*
abi-həyat [a:bi-həyat], *is.*
abi-kövsər [a:bi-kö:sər], *is.*
abituriyent [abituriyent], *is.*
abqora [abqora], *is.*
abonement [abanament], *is.*
abonent [abanent], *is.*
abordaj [abardaj], *is.*
aborigen [abarigen], *is.*
abreviatura [abreviyatura], *is.*
abservatoriya [apservatoriya], *is.*
abstrakt [apstrak't], *sif.*
absurd [apsurd], *sif.*
Abşeron [Apşeron]
abunə [abu:nə], *is.*
abzas [abzas], *is.*
ac [ac], *sif.*
ac-acına [ac-acına], *zərf*
Acarıstan [Acarısdan]
acgöz [acgöz], *sif.*
acgözlük [acgözlüx'], *is.*
acı [acı], *sif.*
acıdil [acıdil], *sif.*
acıdillilik [acıdillilix'], *is.*
acıq [acıx], *is.*
acıqla [acıxnan], *zərf*
acıqlanmaq [acıxlammax], *fel*
acıqlı [acıxlı], *sif.*
acılamaq [acılamax], *fel*
acılıq [acılıx], *is.*
acımaq [acımax], *fel*
acıtəhər [acıtəhər], *sif.*
acıtmaq [acıtmax], *fel*
aciz [a:ciz], *sif.*
acizanə [a:ciza:nə], *zərf*
acizliklə [a:cizdiknən], *zərf*
acqarına [acqarına], *zərf*
acmaq [acmax], *fel*
ac-susuz [ac-susuz], *zərf*
ac-yalavac [ac-yalavaç], *zərf*
açar [açar], *is.*
açarlamaq [açarramax], *fel*
açarlı [açarrı], *sif.*
açdırmaq [açdırmax], *fel*
açıq [açıx], *sif.*
açıq-açığına [açığ-açığına], *zərf*
açıq-aşkar [açığ-aşkar], *sif. və zərf*
açıq-aydın [açığ-aydın], *sif. və zərf*
açıqca* [açıxca] (rusca: otkrıtka), *is.*
açıqca** [açıxca], *sif. və zərf*
açıqcasına [açıxcasına], *zərf*
açıqdan-açığa [açıxdan-açığa], *zərf*
açıqfikirli [açıxfikirri], *sif.*
açıq-qırmızı [açıx-qırmızı], *sif.*
açıqlama [açıxlama], *is.*
açıqürəkli [açığürəx'li], *sif.*
açıq-yaşıl [açıx-yaşıl], *sif.*
açılış [açılış], *is.*
açılmaq [açılmax], *fel*
açmaq [açmax], *fel*
ad [ad], *is.*
ada [ada], *is.*
adadovşanı [adado:şanı], *is.*
adaxlamaq [adaxlamax], *fel*
adaxlanmaq [adaxlammax], *fel*
adaxlı [adaxlı], *is.*
adajio [adajiyo] (musiqidə), *is.*

adam [adam], *is.*
adambaşı [adambaşı], *zərf*
adaptasiya [adaptasiya], *is.*
adapter [adapter], *is.*
adaş [adaş], *is.*
adda-budda [atda-butda], *zərf*
addım [addım], *is.*
addımbaşı [addımbaşı], *zərf*
addımlamaq [addımlamax], *fel*
adekvat [adek'vat], *sif.*
adət [a:dət], *is.*
adətən [adətən], *zərf*
adətkərdə [a:dətkərdə], *sif.*
adi [a:di], *sif.*
adil [a:dil], *sif.*
adilanə [a:dila:nə], *sif.* və *zərf*
adiləşmək [a:diləşməx'], *fel*
adlı-sanlı [addı-sannı], *sif.*
administrasiya [administrasiya], *is.*
administrativ [administrativ], *sif.*
administrator [administrator], *is.*
admiral [admiral], *is.*
Adriatik dənizi [Adriyatik' dənizi]
ad-san [ad-san], *is.*
adverbiallaşma [adverbiyallaşma], *is*
adyal [adyal], *is.*
adyutant [adyutant], *is.*
aerobaza [ayrobaza], *is.*
aerobika [ayrobik'a], *is.*
aerobus [ayrobus], *is.*
aerodrom [ayradrom], *is.*
aeroklub [ayroklub], *is.*
aeroport [ayraport], *is.*
aerostat [ayrostat], *is.*
afərin [a:fərin], *nida*
afət [a:fət], *is.*
affiks [affiks], *is.*
affrikat [afrikat], *is.*
Afina [Afina]
afişa [afişa], *is.*
aforizm [afarizm], *is.*
Afrika [Afrik'a]
afrikalı [afrikalı], *is.*

aftafa [aftafa], *is.*
agah olmaq [a:gah olmax], *fel*
agent [agent], *is.*
agentlik [agentdix'], *is.*
agentura [agentura], *is.*
ağ [ağ], *sif.*
ağa [ağa], *is.*
ağac [ağaç], *is.*
ağacdələn [ağaşdələn], *is.*
ağacqurdu [ağaşqurdu], *is.*
ağaclıq [ağaşdıx], *is.*
ağadayı [ağadayı] (üzüm növü), *is.*
ağalanmaq [ağalammax], *fel*
ağappaq [ağapbax], *sif.*
ağarmaq [ağarmax], *fel*
ağartdırmaq [ağartdırmax], *fel*
ağartı [ağartı], *is.*
ağartmaq [ağartmax], *fel*
ağayana [ağayana], *zərf*
ağbalıq [ağbalıx], *is.*
ağbəniz [ağbəniz], *sif.*
ağbirçək [ağbirçəx'], *sif.*
Ağcabədi [Ağcabədi]
ağcaqayın [ağcaqayın], *is.*
ağcaqanad [ağcaqanat], *is.*
ağcaqovaq [ağcaqovax], *is.*
ağciyər [ağciyər] (qorxaq), *sif.*
Ağdam [Ağdam]
Ağdaş [Ağdaş]
Ağ dəniz [Ağ dəniz]
ağ eləmək [ağ eləməx'], *fel*
ağı [ağı], *is.*
ağıl* [ağıl] (düşüncə), *is.*
ağıl** [ağıl] (dialektdə: tövlə), *is.*
ağıllanmaq [ağıllammax], *fel.*
ağıllı [ağıllı], *sif.*
ağıllı-başlı [ağıllı-başdı], *sif.* və *zərf*
ağıllı-kamallı [ağıllı-kamallı], *sif.*
ağılsız [ağılsız], *sif.*
ağımtıl [ağımtıl], *sif.*
ağır [ağır], *sif.*
ağırayaq [ağırayax], *sif.*
ağırxasiyyətli [ağırxasiyətdi], *sif.*



ağırlaşmaq [ağırraşmax], *fel*
ağırtəbiətli [ağırtəbiyətdi], *sif.*
ağız [ağız], *is.*
ağız-ağıza [ağız-ağıza], *zərf*
ağız-burun [ağız-burun], *is.*
ağızdan-ağıza [ağızdan-ağıza], *zərf*
ağızdolusu [ağızdolusu], *zərf*
ağlabatan [ağlabatan], *sif.*
ağlabatmaz [ağlabatmaz], *sif.*
ağlağan [ağlağan], *sif.*
ağlamaq [ağlamax], *fel*
ağlaşma [ağlaşma], *is.*
ağlaşmaq [ağlaşmax], *fel*
ağrı [ağrı], *is.*
ağrımaq [ağrımax], *fel*
ağsaçlı [ağsaşdı], *sif.*
ağsaqqal [ağsak'qal], *is.* və *sif.*
Ağstafa [Ağsdafa]
Ağsu [Ağsu]
ağyanız [ağyanız], *sif.*
ağyonca [ağyonca], *is.*
ağzıboş [ağzıboş], *sif.*
ağzıbütöv [ağzıbütöv], *sif.*
ağzıqara [ağzıqara] (canavar), *is.*
ağzıyırtıq [ağzıyırtıx], *sif.*
ah [ah], *nida*
aha [aha], *nida*
ah çəkmək [ah çəkməx'], *fel*
ahəng [a:hənk], *is.*
ahənrüba [a:hənrüba] (maqnit), *is.*
ahəstə [a:həstə], *sif.* və *zərf*
ahəstəcə [a:həstəcə], *zərf*
ahıl [ahıl] (yaşlı), *sif.*
ahu [a:hu] (ceyran), *is.*
ah-vay [ah-vay], *is.*
axar-baxarlı [axar-baxarrı], *sif.*
axır [a:xır], *is.*
axirət [a:xirət], *is.*
axmaq* [axmax] (səfeh), *sif.*
axmaq** [axmax], *fel*
axsaq [axsax], *sif.*
axsamaq [axsamax], *fel*
axşam [axşam], *zərf*

axşamayaxın [axşamayaxın], *zərf*
axşamçağı [axşamçağı], *zərf*
axşamkı [axşamki], *sif.*
axşam-səhər [axşam-səhər], *zərf*
axşamtərəfi [axşamtərəfi], zərf
axşamüstü [axşamüsdü], *zərf*
axtarış [axdarış], *is.*
axtarmaq [axdarmax], *fel*
axund [axunt], *is.*
axur [axur], *is.*
aid [a:yid], *qoşma*
aidiyyət [a:yidiyət], *is.*
ailə [a:yilə], *is.*
ailə-məişət [a:yilə-məyişət], *is.*
ailəvi [a:yiləvi], *sif.*
ajiotaj [ajiyataj], *is.*
akademik* [ak'ademik'], *is.*
akademik** [ak'ademik'], *sif.*
akademiya [ak'ademiya], *is.*
akasiya [ak'asiya] (ağac), *is.*
akkord [ak'ort], *is.*
akkordeon [ak'ardiyon], *is.*
akkumulyator [ak'umlyator], *is.*
akrobat [ak'rabat] (canbaz), *is.*
akrobatik [ak'rabatik'], *sif.*
akrobatika [ak'rabatik'a], *is.*
akselerasiya [ak'selerasiya], *is.*
aksessuar [ak'sesuar], *is.*
aksiom [ak'siyom], *is.*
aksion [ak'siyon], *is.*
aksioner [ak'siyaner], *is.*
aksiya [ak'siya], *is.*
aksiz [ak'siz] (aksiz markası), *is.*
akt [ak't], *is.*
aktiv [ak'tif], *sif.*
aktivləşmək [ak'tivləşməx'], *fel*
aktivlik [ak'tivlix'], *is.*
aktrisa [ak'trisa], *is.*
aktual [ak'tual], *sif.*
aktyor [ak'tyor], *is.*
akula [ak'ula], *is.*
akustik [ak'ustik'], *sif.*
akustika [ak'ustik'a], *is.*

akvalanq [ak'valank'], *is.*
akvarel [ak'varel], *is.*
akvarium [ak'variyum], *is.*
aqibət [a:qibət] (son, axır), *is.*
aqil [a:qil], *sif.*
aqilanə [a:qila:nə], *sif.*
aqrar [aqrar], *sif.*
aqreqat [aqreqat], *is.*
aqressiv [aqressif], *sif.*
aqrokimya [aqrokimya], *is.*
aqronom [aqranom], *is.*
al* [al] (hiylə, məkr, yalan), *is.*
al** [al] (qırmızı rəng), *sif.*
ala [ala] (qarışıq rəngli), *sif.*
ala-babat [ala-babat], *sif.*
alabaxta [alabaxda], *is.*
alabəzək [alabəzəx'], *sif.*
ala-bula [ala-bula], *sif.*
alaca [alaca], *sif.*
alacəhrə [alacəhrə], *is.*
alaçıq [alaçıx], *is.*
ala-çiy [ala-çiy], *sif.*
alaf [alaf], *is.*
alagöz [alagöz], *sif.*
alaq [alax], *is.*
alaqanad [alaqanat], *is.*
alaqapı [alaqapı], *is.*
ala-qaranlıq [ala-qarannıx], *sif.* və *zərf*
alana [alana] (quru meyvə, çərəz), *is.*
alaşa [alaşa] (zəif, arıq at), *is.*
ala-tala [ala-tala], *sif.*
ala-toran [ala-toran], *sif.* və *zərf*
alay [alay], *is.*
Alazan [Alazan]
albalı [albalı], *is.*
Albaniya [Albaniya]
albatros [albatros], *is.*
Albert Eynşteyn [Albert Eynşdeyn]
albom [albom], *is.*
albuxara [albuxara], *is.*
alça [alça], *is.*
alçaq [alçax], *sif.*
alçaqboy [alçaxboy], *sif.*

alçalmaq [alçalmax], *fel*
alçaltmaq [alçaltmax], *fel*
alçıpan [alçıpan], *is.*
aldanmaq [aldammax], *fel*
aldatmaq [aldatmax], *fel*
alebastr [alebastr], *is.*
al-əlvan [al-əlvan], *sif.*
aləm [a:ləm], *is.*
alət [a:lət], *is.*
alıcı [alıcı], *is.* və *sif.*
alın [alın], *is.*
alışqan [alışqan], *is.*
alışmaq [alışmax], *fel*
alış-veriş [alış-veriş], *is.*
ali [a:li], *sif.*
alicənab [a:licənap], *sif.*
alim [a:lim], *is.*
aliment [aliment], *is.*
alkoqol [alk'aqol], *is.*
alqış [alqış], *is.*
alqışlamaq [alqışdamax], *fel*
allah [allah], *is.*
alleqorik [alleqorik'], *sif.*
alleqoriya [alleqoriya], *is.*
allergiya [allergiya], *is.*
alliterasiya [alliterasiya], *is.*
alma [alma], *is.*
almacıq [almacıx] (sümük), *is.*
almaq [almax], *fel*
alman [alman] (xalq adı), *is.*
almanax [almanax], *is.*
Almaniya [Almaniya]
almaz [almas], *is.*
aloe [aloye], *is.*
alov [alov], *is.*
alovlandırmaq [alo:landırmax], *fel*
alovlanmaq [alo:lammax], *fel*
Alp dağları [Alp dağları]
alpinist [alpinist], *is.*
alpinizm [alpinizm], *is.*
alt [alt], *sif.*
alternativ [alternatif], *sif.*
altı [altı], *say*



Altıağac [Altağac]
altıncı [altıncı], *say*
altmış [atmış], *say*
altun [altun] (qızıl), *is.*
aludə olmaq [a:ludə olmax], *fel*
alunit [alunit] (zəy daşı), *is.*
alüminium [alminiyum], *is.*
alver [alver], *is.*
alverçi [alverçi], *is.*
alyanaq [alyanax], *sif.*
alyans [alyans], *is.*
Alyaska [Alyask'a]
amal [a:mal], *is.*
aman [aman], *is.*
amansız [amansız], *sif.*
amansızlıq [amansızlıx], *is.*
Amazonka [Amazonk'a]
ambisiya [ambisiya], *is.*
ambulatoriya [ambulatoriya], *is.*
Amerika [Amerika]
amfibiya [amfibiya], *is.*
amfiteatr [amfitiyatr], *is.*
amil [a:mil], *is.*
amma [amma], *bağl.*
amneziya [amneziya], *is.*
amnistiya [amnistiya], *is.*
amorf [amorf] (formasız), *sif.*
amortizasiya [amartizasiya], *is.*
amortizator [amartizator], *is.*
amper [amper], *is.*
ampermetr [ampermetr], *is.*
amplua [amplua], *is.*
ampula [ampula], *is.*
Amsterdam [Amsderdam]
Amu-Dərya [Amu-Dərya]
amyöb [amyöb], *is.*
an [an], *is.*
ana [ana], *is.*
anac [anaç] (toyuq), *sif.*
anaclıq [anacdıx], *is.*
Anadolu [Anadolu]
anafora [anafora], *is.*
anallıq [analıx], *is.*

analitik [analitik'], *sif.*
analiz [analiz], *is.*
analogiya [analogiya], *is.*
analoji [analoji], *sif.*
analoq [analok'], *is.*
ananas [ananas], *is.*
anarxist [anarxist], *is.*
anarxiya [anarxiya], *is.*
anarxizm [anarxizm], *is.*
anaşa [anaşa], *is.*
anatomiya [anatomiya], *is.*
anbar [ambar], *is.*
anbardar [ambardar], *is.*
and [and], *is.*
and-aman [and-aman], *is.*
angina [angina], *is.*
Ankara [Ank'ara]
anket [anket], *is.*
anqar [anqar], *is.*
Anqara [Anqara]
anqırmaq [anqırmax], *fel*
Anqola [Anqola]
anqut [anqut], *is.*
anlamaq [annamax], *fel*
anlaşılmazlıq [annaşılmazdıx], *is.*
anlayış [annayış], *is.*
anma [anma] (mərasim), *is.*
anmaq [ammax], *fel*
annotasiya [anatasiya], *is.*
anonim [ananim], *is.* və *sif.*
anons [anons], *is.*
anormal [anarmal], *sif.*
Anri Barbüs [Anri Barbüs]
anşlaq [anşlak'], *is.*
Antarktida [Antark'tida]
Antarktika [Antark'tik'a]
antena [antena], *is.*
antibiotik [antibiyotik'], *is.*
antik [antik'], *sif.*
antikvar [antik'var], *is.*
antilop [antilop], *is.*
antipod [antipod], *is.*
antiteza [antiteza], *is.*

antoqonist [antaqanist], *sif.*
antologiya [antalogiya], *is.*
antonim [antonim], *is.*
antrakt [antrak't], *is.*
antropologiya [antrapalogiya], *is.*
antroponim [antraponim], *is.*
aorta [aorta], *is.*
apağ [apağ], *sif.*
aparat [aparat], *is.*
aparmaq [aparmax], *fel*
apaşkar [apaşkar], *sif.*
apaydın [apaydın], *sif.*
apelyasiya [apelyasiya], *is.*
apostol [apostol], *is.*
apostrof [apastrof], *is.*
appendiks [apendik's], *is.*
appendisit [apendisit], *is.*
applikasiya [aplik'asiya], *is.*
aprel [aprel], *is.*
aprobasiya [aprabasiya], *is.*
aptek [aptek'], *is.*
ar [ar], *is.*
ara [ara], *is.*
araba [araba], *is.*
Aral dənizi [Aral dənizi]
Aralıq dənizi [Aralıx dənizi]
aramaq [aramax], *fel*
aramla [a:ramnan], *zərf*
aranjeman [aranjeman], *is.*
araşdırmaq [araşdırmax], *fel*
arayış [arayış], *is.*
Araz çayı [Aras çayı]
arbitr [arbitr](hakim), *is.*
arbitraj [arbitraj], *sif.*
areal [ariyal], *is.*
arena [arena], *is.*
arenda [arenda], *is.*
arfa [arfa], *is.*
Argentina [Argentina]
arğac [arğaç], *is.*
arx [arx], *is.*
arxa [arxa], *is.*
arxac [arxaç], *is.*

arxaik [arxayik'], *sif.*
arxaizm [arxayizm], *is.*
arxalıq [arxalıx], *is.*
arxayın [arxayın], *sif.*
arxeologiya [arxiyalogiya], *is.*
arxeoloji [arxiyaloji], *sif.*
arxeoloq [arxiyolok'], *is.*
arıq [arıx], *sif.*
Arximed [Arximet]
arxitektor [arxitek'tor], *is.*
arxitektura [arxitek'tura], *is.*
arxiv [arxif], *is.*
Aristofan [Arisdafan]
Aristotel [Arisdotel]
arka [ark'a], *is.*
Arktika [Ark'tik'a]
arqument [arqument], *is.*
artezian [arteziyan], *is.*
artikl [artik'l], *is.*
artikul [artik'ul], *is.*
artilleriya [artileriya], *is.*
artist [artist], *is.*
artistlik [artistdix'], *is.*
Artyom adası [Artyom adası]
arzu [arzu], *is.*
arzulamaq [arzulamax], *fel*
asayiş [asa:yiş], *is.*
asbest [azbes], *is.*
asiman [a:siman], *is.*
Asiya [Asiya]
aspekt [aspek't], *is.*
assambleya [asambleya], *is.*
assimilyasiya [asimilyasiya], *is.*
assistent [asisdent], *is.*
assonans [asonans], *is*
assosiasiya [asosiyasiya], *is.*
astar [asdar], *is.*
Astara [Asdara]
astma [asma] (xəstəlik), *is.*
astronomik [asdranomik'], *is.*
astronomiya [asdranomiya], *is.*
aşağı [aşağı], *sif.* və *zərf*
aşıb-coşmaq [aşıp-coşmax], *fel*



aşıb-daşmaq [aşıp-daşmax], *fel*
aşıq [aşıx], *is.*
Aşıq Alı [Aşığ Alı]
Aşıq Ələsgər [Aşığ Ələsgər]
aşıqsayağı [aşıxsayağı], *zərf*
aşılamaq [aşılamax], *fel*
aşırım [aşırım], *is.*
aşırmaq [aşırmax], *fel*
aşiq [a:şik'], *is.*
aşiqanə [a:şiqa:nə], *sif.* və *zərf*
aşkar [aşkar], *sif.*
aşkarlamaq [aşkarramax], *fel*
aşkarlayıcı [aşkarlıyıcı], *sif.*
aşpaz [aşpaz], *is.*
at [at], *is.*
ata [ata], *is.*
ataman [ataman], *is.*
Atatürk [Atatürk]
atelye [atelye], *is.*
ateş [a:təş], *is.*
atəşböcəyi [a:təşböcəyi], *is.*
atəşfəşanlıq [a:təşfəşannıx], *is.*
atəşgah [a:təşgah], *is.*
